# *Ceyhun BAYRAMOV:* "Azərbaycan regionda sülhün və sabitliyin bərqərar olmasının tərəfdarıdır"



"Ukraynada yaranmış vəziyyət çox ciddi narahatlıq doğurur. Qurbanların sayı artır. Azərbaycan və Türkiyə fəal, məsuliyyətli mövqe sərgiləyir, münaqişə tərəflərinin liderləri ilə çoxsaylı danışıqlar aparır. Həmçinin məsələnin dialoq, sülh yolu ilə həllinə çağırış edir".

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşdən sonra keçirilən brifinqdə deyib.

Nazir əlavə edib ki, Azərbaycan münaqişənin beynəlxalq hüquqa əsaslanaraq dialoq çərçivəsində həllinin tərəfdarıdır.

❖ ❖ ❖

"Azərbaycan regionda sülhün və sabitliyin bərqərar olmasının tərəfdarıdır. Bu, Ermənistan üçün bir fürsətdir. Ermənistanın hərbi-siyasi rəhbərliyi bu fürsətdən necə istifadə etmək barədə qərar verməlidir".

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşdən sonra keçirilən brifinqdə bildirib.

C.Bayramov qeyd edib ki, Azərbaycan və Türkiyənin mövqeyi beynəlxalq hüquq prinsiplərinə əsaslanır. Ermənistanla münasibətlərin normallaşması məsələsində ölkələrimiz arasında koordinasiya var.

❖ ❖ ❖

"Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq, strateji tərəfdaşlıq, müttəfiqlik münasibətləri hər zaman sıx olub".

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşdən sonra keçirilən brifinqdə deyib.

"Təsadüfi deyil ki, 44 günlük Vətən müharibəsi nəticəsində azad olunan torpaqlarımızın bərpasında Türkiyə şirkətləri fəal iştirak edirlər", - deyə nazir qeyd edib.

Ceyhun Bayramov həmkarı ilə görüşdə ölkələrimiz arasında iqtisadi münasibətlərin nəzərdən keçirildiyini söyləyib. Bildirib ki, Azərbaycan ilə Türkiyə arasında ticarət dövriyyəsi ötən il 12 faiz artıb. Lakin potensial bundan qat-qat yüksəkdir.

Azərbaycan.- 2022.- 6 mart.- S.2.